## *XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI*

UOT 37

***Yeganə Musa qızı Qaraşova***
*filologiya üzrə fəlsəfə doktoru*
*Bakı Dövlət Universitetinin baş müəllimi*

# RƏQƏMSAL CƏMİYYƏT VƏ İNGİLİS DİLİNİN TƏDRİSİ XÜSUSİYYƏTLƏRİ

***Егана Муса гызы Гарашова***
*доктор философии по филологии,*
*старший преподаватель Бакинского Государственного Университете*

# ЦИФРОВОЕ ОБЩЕСТВО И ОСОБЕННОСТИ ПРЕПОДАВАНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА

***Egana Musa Garashova***
*doctor of philosophy in philology,*
*senior lecturer at Baku State University*

# DIGITAL SOCIETY AND PECULIARITIES OF TEACHING THE ENGLISH LANGUAGE

**Xülasə**. Müasir dövrdə cəmiyyətin və dünyanın rifahı rəqəmsal transformasiya ilə sıx bağlıdır. Rəqəmsal dünyada uğur qazanmaq istəyiriksə, mütəmadi olaraq texnoloji tərəqqini izləməli və yeni texnoloji vasitələrdən istifadə etməyi bacarmalıyıq. Rəqəmsal təhsildə müasir tendensiyaların və təhsil prosesində tətbiq olunmasının aktual problemi çağdaş dövrdə tədqiqatçıların diqqətini özünə cəlb edir. Qloballaşma prosesi və texnoloji inkişaf nəticəsində icmalararası ünsiyyət çağdaş dövrdə daha vacib hala gəlmişdir. Bu səbəbdən insanlar həm öz dillərini, həm də xarici dilləri bilmək və onlardan səmərəli istifadə etmək ehtiyacını hiss edirlər. Bu gün ingilis dili qlobal bir ünsiyyət dili xüsusiyyətini özündə ehtiva edir. Dünyada və o cümlədən də, ölkəmizdə ingilis dili xarici dil olaraq geniş şəkildə öyrənilməkdədir.

***Açar sözlər:*** *rəqəmsal texnologiyalar, ingilis dilinin tədrisi, mobil cihazlar, təhsilin rəqəmsallaşdırılması*

**Резюме**. Благополучие общества и мира в наше время тесно связано с цифровой трансформацией. Если мы хотим добиться успеха в цифровом мире, мы должны постоянно следить за техническим прогрессом и уметь использовать новые технологические инструменты. Актуальная проблема современных тенденций цифрового образования и его применения в образовательном процессе в наше время привлекает внимание исследователей. В результате процесса глобализации и технологического развития межобщинная коммуникация стала более важной в наше время. По этой причине люди чувствуют необходимость знать и эффективно использовать как свой родной язык, так и иностранные языки. Сегодня английский – это глобальный язык общения. Английский язык широко изучается как иностранный в мире, в том числе и в нашей стране.

***Ключевые слова:*** *цифровые технологии, обучение английскому языку, мобильные устройства, цифровизация образования.*

**Summary.** The well-being of society and the world today is closely linked to digital transformation. If we want to be successful in the digital world, we must constantly monitor technological progress and be able to use new technological tools. The actual problem of modern trends in digital education and its application in the educational process nowadays attracts the attention of researchers. As a result of the process of

globalization and technological development, intercommunal communication has become more important in our time. For this reason, people feel the need to know and use effectively both their native language and foreign languages. Today English is the global language of communication. English is widely studied as a foreign language in the world, including in our country.

***Keywords:*** *digital technologies, English language teaching, mobile devices, digitalization of education*

**Giriş**. Müasir dövrdə cəmiyyətin və dünyanın rifahı rəqəmsal transformasiya ilə sıx bağlıdır. Rəqəmsal dünyada uğur qazanmaq istəyiriksə, mütəmadi olaraq texnoloji tərəqqini izləməli və yeni texnoloji vasitələrdən istifadə etməyi bacarmalyıq. Rəqəmsal təhsildə müasir tendensiyaların və təhsil prosesində tətbiq olunmasının aktual problemi çağdaş dövrdə tədqiqatçıların diqqətini özünə cəlb edir. Bu gün ingilis dili qlobal bir ünsiyyət dili xüsusiyyətini özündə ehtiva edir. Dünyada və o cümlədən də, ölkəmizdə ingilis dili xarici dil olaraq geniş şəkildə öyrənilməkdədir.

Son illərdə rəqəmsal texnologiya ingilis dilinin tədrisində mühüm rol oynamaqdadır. Kompüter texnologiyası və biliklərinin inkişafı ilə təhsil dünyasında yeni təhsil metodları meydana çıxdı. Əvvəllər insanlar ingilis dilini öyrənmək üçün uzunümddətli kurslara yazılmaq məcburiyyətində idilər. Bu proses isə maddi vəsaitdən əlavə insanların vaxtını da alırdı. Bu səbəbdən dərslərə getmək üçün vaxtı olmayan bir çox insan ingilis dilini öyrənməkdən imtina edirdi. Ancaq texnologiyadakı inkişaf, həyat tərzini dəyişdirməklə yanaşı, öyrənmə tərzini də dəyişdirdi. "Maddi bazanın, proqram təminatının və metodiki dəstəyin yaxşılaşdırılmasında, müvafiq təcrübənin əldə edilməsində müəllimlər təhsilin rəqəmsallaşdırılmasının uğurla həyata keçirilməsinin perspektivini görürlər" [1].

Xarici dil tədrisində metod müxtəlifliyi və texnikanın yeniliyi olduqca vacibdir. Dil tədrisində texnoloji vasitələr şagirdlərin yaşına, öyrənmə ehtiyaclarına və maraq səviyyələrinə uyğun olaraq hazırlana bilər. Yaxşı bir dil tədrisi üçün keçmişdən bu günə qədər afişalar, slaydlar, qrafika, kuklalar, əyani elementlər, teatr, televiziya, film, CD, kompüter və s. alətlər tez-tez dil tədris proqramlarına daxil edilir. Elm və texnika sahəsindəki sürətli inkişaflar nəticəsində öyrənmə və tədris mühitində texnologiyanın istifadəsi və həm gözə, həm də qulağa təsir edən materiallarla təhsil proqramının qazancların qalıcı olmasında rol oynadığı görülür.

Hazırda kompüter xarici dil təhsilində texnologiyaların istifadəsini şərtləndirən mühüm amildir. Rəqəmsal mühitdə texnoloji alətlər vasitəsilə dəstəklənən bir tədris prosesi, real həyata və fərdi öyrənməyə çox yaxın mühitlərdə hədəf dilinin tədrisinə əhəmiyyətli dərəcədə kömək edə bilər. Tələbələrin texnoloji vasitələrlə vaxtından və məkanından asılı olmayaraq istədikləri zaman və istədikləri yerdə məlumat əldə edə bilməsi fərdi fərqləri azaldır və bu fakt da onların öz templəri ilə öyrənmələrini təmin edir. Müxtəlif veb saytlar mövzulara uyğun olaraq hər səviyyədə dil öyrənmə və tədrislə bağlı fəaliyyətlər təklif edir. Veb saytlar tərəfindən təqdim olunan bu audio-vizual fəaliyyətlər sayəsində hər hansı bir insan xarici dili effektiv və daimi öyrənə bilər.

**İngilis dilinin öyrənməsində texniki imkanlar**. İngilis dilinin öyrənməsində texnoloji istifadənin inkişaf prosesinə baxdığımız zaman bu prosesə təsir edən iki əsas amili qeyd etmək yerinə düşərdi. Bu amillərdən biri ingilis dilini öyrənmə sahəsində ortaya çıxan nəzəriyyələrin təsirləri, digəri isə informasiya texnologiyaları sahəsindəki inkişaflardır. Ümumiyyətlə, 1940-cı illərdə ortaya çıxan "Audio lingual" metodu ingilis dilinin tədrisində yeni bir metod kimi ortaya çıxdı. Bu metod nəticəsində xüsusi dil laboratoriyaları yaradıldı. Texnoloji inkişafdan asılı olaraq 1960-cı illərdə dil laboratoriyalarında slayd proyektorların və sonra film maşınlarının istifadə edilirdi. Lakin XX əsrin 60-70-ci illərində geniş istifadə olunan dil laboratoriyaları 1970-ci illərin sonunda yox olmağa başladı. Bunun səbəbi, idrak nəzəriyyəsi sayəsində dildə yeni bir metodun - "Koqnitiv-kommunikativ" metodunun qəbul edilməsi idi. 1980-ci illərdə dil laboratoriyalarında video texnologiyasının inkişafı ilə video laboratoriyaları əvəz edən video filmlərdən istifadə olunurdu. Bu dövrdə bir sıra xarici ölkələrdə ingilis dilini geniş kütlələrə öyrətmək üçün müxtəlif televiziya kanalları fəaliyyətə başladı.

Mobil təlimdə fərdlər planşet kompüterlər, smartfonlar və e-oxucular kimi portativ cihazlar

vasitəsilə rəqəmsal təhsil məzmunu təmin edirlər. Hazırda mobil təhsil ortaya çıxan texniki, psixoloji və təhsil maneələrinə baxmayaraq sürətlə bütün dünyaya yayılır. Gündəlik həyatın bir hissəsinə çevrilmiş mobil telefonların və ya mobil cihazların gənc nəsil arasında geniş yayılması, mobil təhsili daha da cəlbedici edir. Mobil təhsil elektron təhsilin bir qolu kimi qəbul edilir. Cib telefonları, tablet kompüterlər, kiçik kompüterlər, rəqəmsal səsyazma cihazları bu gün ən çox istifadə edilən mobil şəkildə dil öyrənmək üçün istifadə olunan cihazlardır. Mobil şəkildə dil öyrənmək üçün istifadə olunan cihazlar Android, IOS, Windows, Blackbery OS, Linux və Symbian kimi əməliyyat sistemləri ilə işləyir. Bu gün ən çox istifadə olunan mobil öyrənmə cihazlarına IOS ilə işləyən iPhone, iPad və iPod Touch və Android və Windows əməliyyat sistemləri tərəfindən dəstəklənən digər smartfonlar və tablet kompüterlər daxildir.

İnformasiya istehsalı, ötürülməsi və istifadəsindəki irəliləyişlər sayəsində kompüterlər müasir dövrdə məlumat əldə etməyin ən təsirli vasitələrindən biri halına gəldi. İnkişaf etmiş kompüter şəbəkələri sayəsində dünyanın istənilən yerindən asanlıqla məlumat əldə etmək mümkündür. Təhsil sektoru da bu inkişaflardan faydalanmağa çalışdı və bu texnologiya təhsil məqsədi ilə istifadə edilir. İngilis dilinin tədrisində audio-vizual və interaktiv xüsusiyyətlərə malik vasitələrdən istifadənin öyrənmənin asanlaşdırılması mübahisəsizdir. İnformasiya və kommunikasiya texnologiyaları ingilis dilinin mövqeyini və əhəmiyyətini dünya şəbəkəsi vasitəsi ilə tanıtmağa kömək edir. “Xarici dil tədrisi və kommunikativ yanaşma üzərində aparılan tədqiqatlar sosial qarşılıqlı əlaqələrin dil tədrisinin əvəzedilməz bir elementi kimi özünü biruzə verir” [2; 3; 4; 5; 6].

Ümumiyyətlə, çağdaş dövrdə informasiya texnologiyaları təhsil daxil olmaqla insan fəaliyyətinin bütün sahələrində fəal şəkildə istifadə olunur. Rəqəmsal texnologiyalar kompüter texnologiyalarına əsaslanır, bununla birlikdə texnologiya ilə istifadəçi arasında fərqli bir əlaqəni nəzərdə tutur. İlk fərdi kompüterlərin meydana çıxması ilə müəllimlər tədris prosesini gücləndirmək üçün fərdi kompüterlərdən istifadə etməyə başladılar. XXI əsrdə ingilis dil tədrisində kompüter texnologiyalarından geniş istifadə olunur. İngilis dili tədrisi prosesinə multimedia və rəqəmsal texnologiyaların inteqrasiyası xüsusi bir spesifikliyə malikdir.

1990-cı illərdə fərdi kompüterlərin və internetin yayılması ilə fərdi şəkildə ingilis dilini öyrənmək imkanı ortaya çıxdı. “Texnologiyanın köməyi ilə dil öyrənmə” termini 1990-cı illərdə rabitə və İnternet texnologiyasının təklif etdiyi inkişaf perspektivlərinə cavab olaraq meydana gəldi. Rəqəmsal səs, mətn və şəkil birləşməsi, yəni multimediya, “Kompüter dəstəkli təlimat” (Computer-aided) adı altında ingilis dili tədrisində istifadə olunmağa başladı. Vaxt keçdikcə bu inkişaflara paralel olaraq dil laboratoriyalarından fərdi şəkildə dil öyrənilməsinə bir dönüşüm əldə edildi. 2010-cu illərdə ağıllı telefonlarının inkişafı sayəsində Kompüter Dəstəyilə Dil Öyrənmədən (Computer Assisted Language Learning (CALL)) Mobil Telefonu Dəstəyilə Dil Öyrənmə (Mobile Phone Assisted Language Learning (MALL)) istiqamətinə keçid yarandı.

Kompüter dəstəkli təhsil son illərdə təhsil sahəsində ən aktual mövzulardan biridir. Bu gün məlumdur ki, tədris yalnız təhsil ocağında deyil, məktəbdən sonra da davam edir və hətta bütün insan həyatını əhatə edir. Şagirdər məktəbi bitirdikdən sonra da öyrənməyə davam edə biləcək bacarıqlara sahib olmalıdırlar. Kompüter yardımı ilə dil öyrənmək əvvəlcə baha başa gəlsə də, fərdi kompüterlərin geniş yayılması və qiymətlərin enməsi nəticəsində mövcud problem ortadan qalxdı. Kompüter tərəfindən dəstəklənən tədris materiallarından istifadə edən şagirdlər təhsillərini məktəbdən sonra da davam etdirirlər. “Bu səbəbdən də təhsil proqramlarının kompüter texnologiyaları ilə inteqrasiyası son illərdə bir çox ölkənin təhsil hədəfləri arasındadır” [7]. Fərdi tədris forması effektivliyi nəticəsində şagirdlər və tələbələr yaşlarına və ehtiyaclarına uyğun materiallarla işləyirlər.

Bu gün müasir rəqəmsal və multimedia texnologiyalarını ingilis dili prosesinə inteqrasiya etmək istəyən müəllim müəyyən çətinliklərlə üzləşə bilər. Bunlara müəllif hüququ uyğunluğu, məxfilik, müəyyən mənbələrdən istifadə üçün yaş xüsusiyyətləri, zərərli proqram təminatı, şəxsi məlumatların qorunması və digər problemləri daxildir. Tələbələri rəqəmsal təhdidlərdən daha yaxşı qorumaq üçün nəzarət olunan profil yaratmaq xüsusiyyətindən istifadə etmək məslə-

hətdir. Bu funksiya, uşaqların hansı saytları ziyarət edə biləcəyini, istənməyən veb səhifələrin qarşısını alaraq, brauzer tarixçəsinə baxma imkanı verir.

İngilis dili ilə bağlı multimedia təqdimatlarının yaradılması tələbələrin müxtəlif bacarıqlarını inkişaf etdirməyə kömək edəcəkdir. İngilis dilində rəqəmsal səriştənin formalaşması prosesini texniki inkişaf olmadan təsəvvür edilə bilməz, belə ki, texniki inkişaf rəqəmsal səriştənin əsas komponenti kimi təzahür edir. Mövcud problemlə məşğul olan mütəxəssisləri və proqramçılar hər zaman daha yaxşı dil tədrisi üçün yeni metodlar icad edib auditoriyalarına təqdim etməyə çalışırlar. Hazırda bu sahə üzrə tətbiq edilən texnologiya gündən-günə daha da mobilləşir. Yalnız sinif otağında, konfrans salonunda, kompüter otağında deyil, həm də evdə, yolda və yeməkxanalarda da bu texnologiyalardan istifadə edilə bilər. Bir sıra rəqəmsal texnologiya vasitələrindən istifadə etməklə inglis dili öyrənənlərin dörd əsas dil bacarıqlarını inkişaf etdirmək mümkündür: danışmaq, dinləmək, yazmaq və oxumaq. Təlimatçıların texnologiya ilə işlədikləri kontekstlər bir-birindən çox fərqlənir və texnologiyanın tətbiqi baxımından ingilis dilini mənimsəyənlərə təsir göstərir.

Müəllimlərin dili öyrətmək üçün istifadə etdikləri tədris vasitələri fərqlidir, lakin hamısı istər-istəməz öyrənənin zehni öyrənmə fəaliyyətlərini hədəf alır. Bugünkü cəmiyyətdə texnologiya, öyrənmə və tədris bir-birinə bağlıdır və daim inkişaf edir. Bu cür real həyat təcrübəsi yeni təhsil məzmunu təmin etmək üçün bir istinad oldu. Bu baxımdan, ali təhsilin genişləndirilməsi üçün düzgün əxlaqi və elmi istiqamətdə hərəkət etmək getdikcə daha zəruridir. Müəllimlər dərs planlarını və mənbələrini bölüşmək üçün auditoriyada tələbələrlə birlikdə çalışmalı və bu günki kitablarının əksəriyyətinin təklif etdiyi texnologiyaya əsaslanan mənbələrdən istifadə etməlidirlər. Aşağı göstərcilərə malik olan tələbələri sadə və asan texnologiyaları tətbiq etməklə həvəsləndirməlidirlər. "Münasib proqramlar tələbələrin qrafik şəkillər sayəsində yeni materialları daha yaxşı qavramalarına kömək edir" [8].

İngilis dilinin tədrisi zamanı daim yenilənən rəqəmsal texnologiyaların tipologiyası barədə məlumat əldə etmək, istifadə imkanlarını müəyyənləşdirmək və onlarla işləmək metodologiyasını qavramaq lazımdır. Elektron test nəticələrin şifahi vizual nəzarəti ilə yanaşı müəllim tərəfindən biliklərin idarə edilməsi və qiymətləndirilməsi üçün avtomatik bir vasitədir və ya özünüidarəetmə vasitəsidir. Rəqəmsal texnologiyaların auditoriyada istifadəsi müəllim və tələbələr üçün məhdudiyyətsiz imkanlar yaradır. Virtual modellərlə iş, video, animasiya, səs, qrafika vasitəsilə tələbələr mövzuya diqqət yetirir. Qeyd edək ki, tədris prosesindəki bəzən məcburi texniki və metodoloji dəyişikliklər səbəbindən xarici dillərin, o cümlədən də ingilis dilinin tədris üsulları hər gün dəyişir. Müəllimlər və tələbələr tərəfindən rəqəmsal alətlərin və materialların praktik olaraq mənimsənilməsi müasir təhsildə uğurun əsasını təşkil edir. "Tələbələrə və məktəblilərə sürətlə inkişaf edən rəqəmsal texnologiyalar əsrində yaşamağı, eyni zamanda rəqəmsal dünyada öz davranış strategiyalarını anlamağı öyrətmək rəqəmsal əsrdə müəllimlərin ən çətin vəzifələrdən biridir" [9, s. 163].

İnternet, YouTube, Skype, Twitter, bloqlar, cib telefonları, interaktiv lövhələr və s. kimi yeni texnologiyalar ingilis dilinin tədrisi prosesinin intensivləşdirilməsi, tədrisin informasiya məzmununun, interaktivliyinin və effektivliyinin artırılması üçün istifadə olunur. Müəllimlər tələbələrə ingilis dilində olan mahnılar dinlətmək, filmlər, kliplər, reklamlar, müxtəlif məzmunlu verilişlər izlətmək kimi yeni metodlarından istifadə edərək auditoriyanı ingilis dilinin tədrisinə cəlb edə bilərlər. Ümumiyyətlə, informasiya və kommunikasiya texnologiyalarının istifadəsi ilə xarici dilin tədrisi prosesi arasındakı əlaqə göz qabağındadır. İngilis dili öyrənməyin əsas məqsədi kommunikativ səriştənin və ingilis dilində nitq qabiliyyətinin formalaşdı-rılması olduğundan, bu məqsədə çatmaq üçün istifadə olunan yanaşma mədəniyyətlərarası ünsiyyətin tədrisini nəzərdə tutur. Rəqəmsal təhsil texnologiyalarının tətbiqində praktik bacarıqların rəqəmsal təhsil prosesində böyük əhəmiyyəti var. Onlayn təhsilin tətbiqi ilə vasitəçilik əlaqələri müşahidə olunur, bu da qarşılıqlı təsir dairəsinin daim artdığını göstərir.

Bugünkü cəmiyyətdə texnologiya, təhsil və tədris bir-birinə bağlıdır və daim inkişaf edir. Rəqəmsal texnologiyalarının insan fəaliyyətinin müxtəlif sahələrinə sürətlə tətbiqi təhsilin gələ-

cək inkişafının konseptual yanaşmalarına ciddi problem yaradır. Rəqəmsal texnologiyalar vasitəsilə ingilis dilinin tədrisi zamanı ortaya çıxan problemləri həll etmək üçün müəllim və tələbələr müasir texnologiyanın sirlərinə yiyələnməlidirlər. Unutmaq olmaz ki, tələbənin ingilis dilində mənimsədiyi bilik, gələcək mütəxəssislərin uğurlu peşə fəaliyyəti üçün vacib bir meyardır.

Təhsilin rəqəmsallaşdırılması təhsil sistemlərini rəqəmsal texnologiyalarla təmin etməyə yönəlmiş sosial və pedaqoji dəyişikliklərin məcmusudur. Müasir rəqəmsal texnologiyalar, müxtəlif dərəcədə nitq fəaliyyəti təlimi prosesində tələbələrin öyrənmə bacarığını aktivləşdirən müxtəlif multimedia və interaktiv orijinal mənbələr sayəsində ingilis dilinin tədrisi prosesinin intensivləşməsinə kömək edir. Nəticədə tələbələrin idrak fəaliyyəti və motivasiyası artır, onların dil və ünsiyyət bacarıqları formalaşır. Bununla birlikdə, rəqəmsal tədris vasitələrinin əhəmiyyətli üstünlüklərinə baxmayaraq, onlar tamamilə müəllimi əvəz edə bilməzlər, ancaq həm praktik, həm də dərsdənkənar fəaliyyətlərdə xarici dil fəaliyyətinin bəzi cəhətlərini mənimsəmək üçün şərait yaradırlar, eyni zamanda təhsil prosesini fərdiləşdirirlər.

İnsan potensialının keyfiyyəti əsasən təhsil sisteminin fəaliyyətinin səmərəliliyindən asılıdır. Bu gün rəqəmsallaşma müasir təhsilin inkişafında yeni bir istiqamət kimi önə çıxır. Cəmiyyətin müxtəlif sahələrində texnologiyaların tətbiqi hər zaman dəyişikliklərlə müşayiət olunur, çünki yeni təhsil sistemilə köhnə yəni, ənənəvi təhsil sistemi arasında müəyyən fərqlər vardır. Təhsilin rəqəmsallaşdırılmasının əsas istiqamətlərini müəyyənləşdirmək, onların obyektiv təhlilini təqdim etmək olduqca zəruridir. İngilis dilinin tədrisində rəqəmsal texnologiyanın geniş formada tətbiqi mövcud problemlə məşğul olan mütəxəssislərin fəaliyyətləri ilə sıx bağlıdır.

İngilis dili təhsilində texnologiyanın istifadəsi, şagird və tələbələrin dil bacarıqlarının inkişafı baxımından çox təsirli olur. Texnologiyaların istifadəsində müəllimlərin diqqət yetirməli olduqları məqamlar uşaqların yaşına, inkişaf səviyyəsinə və dil səviyyəsinə uyğun material və vasitələrin seçilməsi, öyrənmə nəticələrinə uyğun olaraq texnologiyadan istifadə ediləcək fəaliyyətlərin planlaşdırılması və struktur-laşdırılmasıdır. Qloballaşma çağında mədəniyyətlərarası yaxınlaşma dil tədrisi və tərcümə tədqiqatlarındakı inkişaf nəticəsində sürətləndi. “Ünsiyyət nəticəsində şagirdlər dil təhsilini inkişaf etdirməklə yanaşı mədəniyyətlərarası səriştəni artırırlar” [10].

Bu gün texnologiyanın istifadəsi həyatımızın bir çox sahələrində işimizi daha asanlıqla yerinə yetirməyə imkan verir. Əlbəttə ki, ingilis dili təhsili də bu inkişafdan öz payını alır. Dil tədrisində texnologiyanın istifadəsi bir çox sahələrdə həm müəllimlərin işini, həm də tələbələrin dərsi mənimsəməsi prosesini asanlaşdırır. İngilis dili təhsili və təlimində dərslərdə istifadə olunan materiallara əlavə olaraq kompüter dəstəkli proqramların istifadəsi, şagird və tələbələrin mövzuya marağını cəlb etmək, motivasiya yaratmaq və öyrənməkdən zövq almaq üçün lazımdır. Tədris prosesində hər bir fərdin fərqli şəxsiyyət xüsusiyyətləri vardır. Bu fərdi xüsusiyyətlərindən asılı olaraq fərqli öyrənmə üslubları və strategiyaların inkişaf etdirmək mümkündür. Dil tədrisində texnologiyadan istifadə tələbənin ünsiyyət qurma qabiliyyətini yaxşılaşdıracaqdır. Bu gün texnologiyadan istifadə tələbələrin bu problemi həll etməsinə kömək edir. Həmin kurs üçün yaradılmış bloqlarda və ya Whatsapp qruplarında tələbələr dərhal bir mövzunu sinif yoldaşları ilə müzakirə edə və müxtəlif proqramlar vasitəsilə ünsiyyət qura bilirlər. “Xarici dil tədrisində sosial qarşılıqlı təsir virtual aləmlərin istifadəsi ilə yeni bir anlam kəsb etdi. Virtual aləmdə təhsilin məqsədi ortaq öyrənmə mühitlərinin yaradılması, tələbələr arasında sosial qarşılıqlı əlaqələrin artırılması, öyrənənlərin müstəqilliyinin təmin edilməsi və təhsilin keyfiyyətinin artırılmasıdır” [11, s.42].

Mütəxəssislərin fikrincə, beynə, xüsusən göz və qulağa birbaşa təsir edə bilən cihazlar xarici dil öyrənmək istəyən insanlar stimullaşdırır və bu qəbildən olan cihazlar təhsilin qalıcılığını təmin edir. Yaşadığımız informasiya əsrində sürətli elmi və texnoloji inkişaf nəticəsində təhsildə, o cümlədən də ingilis dilinin öyrənilməsi asanlaşır. Bu səbəbdən təhsildə ən çox istifadə olunan rəqəmsal texnoloji vasitələr zəruri əhəmiyyət kəsb edir. Həm ictimai həyatda, həm də təhsil praktikasında önəmli bir yer tutan kompüter, ənənəvi təhsil anlayışından fərqli olaraq, təhsilalanların müxtəlif hisslərinə təsir gös-

tərir. Xarici dil təhsili sahəsində çətinliklərin olduğu və arzu olunan müvəffəqiyyətin əldə oluna bilmədiyi zaman dil tədrisində səmərəliliyin artırılması və şagirdlərə müxtəlif imkanlar təqdim edilməsi üçün xarici dil təhsili proqramları müxtəlif rəqəmsal texnologiyalar tərəfindən dəstəklənməlidir. "Təhsil işçiləri üçün təlim-tədris proseslərinə mobillik gətirən informasiya texnologiyalarından səmərəli istifadə etməsi vacibdir və beləliklə, yeni texnologiyaların təhsildə istifadəsi təlim-tədris fəaliyyətini asanlaşdırmış və əyləncəli hala gətirmişdir" [12].

Son bir neçə ildə tədris prosesinin inkişafında mühüm rol oynayan çoxsaylı yeni texnoloji cihazlar meydana çıxdı. Əslində rəqəmsal savad kompüter savadından fərqlidir. Burada tənqidi düşünmə bacarıqları, onlayn mühitdə gözlənilən davranış standartları və rəqəmsal texnologiyaların yaratdığı sosial məsələlərin anlaşılması tələb olunur. Müasir dövrdə ingilis dilini öyrənənlərin rəqəmsal savada malik olması olduqca zəruridir. Rəqəmsal alətlərdən istifadə etmədən şagird və tələbələrə onlayn dünyada nəyin lazım olduğunu anlamaq çətindir. Buna görə müəllimlər özləri də rəqəmsal savada malik olmalıdırlar. Rəqəmsal savadın əsas tərkib hissələri aşağıdakılardır:

*Əməkdaşlıq*. İnsanlar və komanda ilə əlaqədar bacarıqlarla başqaları ilə ortaq ünsiyyət qurma bacarığı.

*Yaradıcılıq*. Fürsətləri təşəbbüskarlıqla qiymətləndirə bilmək və yeni fikirlər yaratmaq üçün doğru suallar vermək.

*Tənqidi düşüncə*. Məlumat və mübahisələri qiymətləndirə bilmək, nümunələri və əlaqələri müəyyənləşdirmək, mənalı biliklər qurmaq və real dünyada tətbiq etmək.

*Vətəndaşlıq*. Müxtəlif dəyərləri və dünyagörüşünü dərindən anlamağa əsaslanan məsələləri nəzərdən keçirmək və mürəkkəb problemləri həll etmək bacarığı.

*Xarakter*. Dözümlülük, əzmkarlıq, iradə kimi xüsusiyyətlərlə öyrənməyi həyatın ayrılmaz hissəsi etmək.

*Əlaqə*. Müxtəlif metodlarla və vasitələrlə müxtəlif auditoriyalarla effektiv ünsiyyət qurmağı bacarmaq [13].

Dilçilik sahəsindəki ümumi araşdırmalara görə, adi bir insanın yeni bir dil öyrənməsi üçün təxminən 1100 saat lazımdır. Bu o deməkdir ki, ingilis dilini məqbul səviyyədə öyrənmək üçün ən azı altı ay vaxt sərf olunur. Əlbəttə ki, dil öyrənənlərin çoxunun ibtidai səviyyədən yüksək səviyyəyə keçməsi bir- iki il vaxt aparır. Lakin rəqəmsal texnologiyalar vasitəsilə bu vaxtı qısaltmaq mümkündür. Rəqəmsal texnologiya ingilis dilinin qrammatikasını öyrənməkdə çətinlik çəkənlər üçün yaxşı bir seçimdir. Rəqəmsal texnologiya vasitəsilə təhsilalanlar ingilis dilində hərflərin və sözlərin düzgün tələffüzünü və yazılışını daha tez mənimsəyir, lazım olan vacib qrammatik məqamları öyrənir.

Hazırda dünyada ən çox yayılmış dillərdən biri olan ingilis dili 60-a yaxın müstəqil ölkənin yeganə rəsmi dilidir və ya rəsmi dillərdən biridir. Bu gün ingilis dili dünyanın bir çox ölkələrində ikinci bir dil olaraq geniş şəkildə öyrədilir. İngilis dili həmçinin Birləşmiş Millətlər Təşkilatının və Avropa Birliyinin rəsmi dilidir. Bu baxımdan da ingilis dilinin bizim ölkəmizdə də geniş şəkildə tədrisi olduqca aktualdır.

**Problemin aktuallığı**. Son illərdə rəqəmsal texnologiya ingilis dilinin tədrisində mühüm rol oynamaqdadır. Məqalədə rəqəmsal cəmiyyətdə ingilis dilinin tədrisinin mühüm xüsusiyyətləri öz əksini tapmışdır.

**Problemin yeniliyi**. Qloballaşma prosesi və texnoloji inkişaf nəticəsində icmalararası ünsiyyət çağdaş dövrdə daha vacib hala gəlmişdir. Bu səbəbdən insanlar həm öz dillərini, həm də xarici dilləri bilmək və onlardan səmərəli istifadə etmək ehtiyacını hiss edirlər.

**Problemin praktik əhəmiyyəti**. Müasir dövrdə texnologiyalar insan həyatının ayrılmaz bir parçasına çevirlmişdir və biz texnologiyaların hər yerdə olduğu bir dünyada yaşayırıq. Hər yerdə olan texnologiyanın mövcudluğu səbəbindən hazırda tədris metodikası da müəyyən dəyişikliklərə məruz qalmışdır. "Elektron təhsil" və ya "təhsildə texnologiya" ifadəsi hər təhsil mühitində sensasiya yaratdı. Texnologiyaların təhsilə yeridilməsi, bugünkü tələbələrin tələblərinə cavab verdiyi üçün həqiqətən vacibdir.

**Ədəbiyyat**

1. Donovan J. Widening student participation through technology: Universities can gain from employing digital tools in their teaching and learning strategies // Research Information. – 2017 – № 93. – 15 p.
2. Hall, J. K. ve Verplaetse, L. S. (2000). Second and foreign language learning through clas-sroom interaction. Mahwah, NJ: Erlbaum.
3. Lantolf, J. (Ed.). (2000). Sociocultural theory and second language learning. Oxford, England: Oxford University Press.
4. Long, M. H. (1983). Native speaker/non-native speaker conversation and the negotiation of comprehensible input. Applied Linguistics, 4, 126-141.
5. Long, M. H. (1996). The role of the linguistic environment in second language acquisition. William, T. Ritchie; T. K. Bhatia (Yay.), Handbook of Second Language Acquisition (ss. 413-454) içinde. San Diego: Academic Press.
6. Pica, T. (1994). Research on negotiation: What does it reveal about second-language learning conditions, processes, and outcomes? // Language Learning, 44, 493-527.
7. Akkoyunlu, B., Kurbanoğlu S. (2003). Öğretmen adaylarının bilgi okuryazarlığı ve bilgisayar öz-yeterlilik algıları üzerine bir çalışma. Hacettepe Üniversitesi Eğitim Fakültesi Dergisi, 24, 1-10.
8. Иванова Е.О. Электронный учебник – предметная информационно-образовательная среда самостоятельной работы учащихся // Образование и наука. – 2015. – № 5 (124). – С. 118-128.
9. Дигтяр О.Ю. Современные образовательные технологии преподавания иностранных языков студентам неязыковых вузов в условиях реализации стандартов нового поколения и информатизации образования. Мир педагогики и психологии. Нижний Новгород: Научно-издательский центр «Открытое знание». 2019; № 1 (30).
10. Lee, L. (2004). Learners' perspectives on networked collaborative interaction with native speakers of Spanish in the US. Language Learning & Technology, 8 (1), 83-100 // Görüntüleme adresi ve tarihi,10 Mayıs 2015, http://llt.msu.edu/vol8num1/lee/defa-ult. html
11. Kazazoğlu S. Yabancı dil öğretiminde teknoloji tabanli etkileşim: second life örneği. Dil Dergisi • Sayı: 164 • Nisan-Mayıs-Haziran 2014.
12. Pala, A. (2006). İlköğretim birinci kademe öğretmenlerinin eğitim teknolojilerine yönelik tutumları. // Manas Üniversitesi Sosyal Bilimler Dergisi, 16, 177-188.
13. Digital literacy in the classroom. How important is it? https://resourced.prometheanworld.com

E-mail: yegana_qrshv1287@mail.ru

**Rəyçilər**: *ped.ü.fəls.dok., dos.* R**.A. Salahov,**
*ped.ü.fəls.dok., dos.* **F.Ə. Rzayeva**

**Redaksiyaya daxil olub:** 30.06.2021.